UOT: 631.4; 626.8

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN TORPAQ FONDU VƏ ONUN İSTİFADƏÇİLİK VƏZİYYƏTİ

a.e.ü.f.d., dos. **M.F. Qurbanov,**
E-mail: qurbanov1958@list.ru
elmi işçi **Ə.F. Əliyeva,**
elmi işçi **G.A.Novruzlu,**
mühəndis **Məmmədova R.E.**
"AzHvəM"EİB

*Məqalə redaksiya heyətinin 31.03-2022-ci il tarixli iclasında (protokol № 02) t.e.d. S.T. Həsənovun təqdimatı əsasında müzakirə olunaraq, onun Birliyin "Elmi əsərlər toplusu"nun XLIII cildinə daxil edilməsi qərara alınmışdır.*

**Xülasə.** Məqalədə respublikanın işğaldan azad olunmuş ərazilərinin işğalaqədərki dövr üçün torpaq fondu, torpaqların keyfiyyət qrupu, əkin sahəsi, meliorativ-ekoloji vəziyyətini xarakterizə edən göstəricilər üzrə toplanmış materiallar əsasında həmin ərazilərin torpaq fondunun istifadəçilik vəziyyəti təhlil olunur.

**Açar sözlər:** torpaq fondu, əkin sahəsi, şorlaşma, eroziya, qrunt suları, şorakətləşmə.

**Giriş.** 2020-ci ilin sentyabr-oktyabr aylarında müzəffər ordumuz tərəfindən həyata keçirilən əks hücum əməliyyatları nəticəsində 1992-1993-cü illərdə erməni təcavüzkarları tərəfindən işğal olunmuş torpaqlarımız (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Laçın, Kəlbəcər rayonları və Şuşa şəhəri) işğaldan azad olundu.

Dövlətimiz tərəfindən qəbul olunmuş "Qarabağa qaydış" proqramına uyğun olaraq işğaldan azad olunmuş ərazilərin bərpa olunması, soydaşlarımızın öz doğma yurdlarına qayıtması və onların yaşayış üçün lazım olan şəraitin yaradılması qarşımızda duran ən vacib məsələlərdəndir.

İşğaldan azad olunmuş rayonların iqtisadiyyatı əsasən kənd təsərrüfatı yönümlü olduğuna görə əhalinin böyük əksəriyyətinin məşğulluğu kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı olmuşdur. Bu baxımdan həmin ərazilərdə kənd təsərrüfatının inkişafı üzrə tədbirlərin hazırlanması "Qayıdış" proqramının prioritet məsələlərdən biridir. İlk olaraq işğaldan azad olunmuş torpaqların torpaq fondu və onun istifadəçilik vəziyyəti qiymətləndirilməli və qiymətləndirmələrin nəticələrinə uyğun olaraq bu torpaqlarda kənd təsərrüfatının inkişaf perspektivləri müasir dövrün tələblərinə uyğun müəyyən edilməlidir.

Ağdam və Füzuli rayonlarının yalnız müəyyən hissəsi istisna olmaqla digər rayonların hamısı 1992-2020 -ci illərdə tamamilə erməni işğalçılarının nəzarəti altında olmuşdur. Ona görə də işğaldan azad olunmuş torpaqların torpaq fondu və onun istifadəçiliyi vəziyyətini təhlil etmək üçün 1992-ci ilə qədərki məlumatlardan istifadə edilməsini məqsədəuyğun hesab etmək olar. İşğaldan azad olunmuş rayonlar üzrə müfəssəl təsəvvür formalaşdırmaq üçün toplanmış çox meyarlı məlumatlar hər bir rayon üçün ayrı-ayrılıqda verilmiş, sonda isə tədqiq olunan bölgə üzrə ümumiləşdirilmişdir.

**Təhlil və müzakirə.** Füzuli rayonu Qarabağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. Rayon Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun ümumi sahəsi 139 min hektardır. Rayon 1993-cü il avqust ayının 23-də təcavüzkar erməni ordusu tərəfindən işğal olunmuşdur. 1994-cü ildə ordumuz tərəfindən aparılan əks hücum əməliyyatı nəticəsində bir hissəsi (92800 ha) işğaldan azad olunmuş, 46200 ha isə işğal altında qalmışdı.

Rayonda 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri olmuşdur. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qazluçay, Gərəkən çayları Araz hövzəsinin





çaylarıdır.

2020-ci ilin oktyabr ayına qədər rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 24 kənd olmuşdur. Həmin ərazilərdə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır [ 5 ].

Rayonun kənd təsərrüfatına yararlı torpaq sahəsi 114450 hektardr. Meşə torpaqları 78 ha, kənd təsərrüfatında istifadə olunmayan, şərti yararsız torpaqlar isə 24865 hektara bərabərdir. Kənd təsərrüfatına yararlı torpaqların 44621 hektarı əkin və dincə qoyulmuş torpaqlar, eyni zamanda çoxillik əkmələr təşkil edir. Örüş, otlaq və biçənəklərin sahəsi 67751 hektardır. 2078 hektar ərazisini isə həyətyanı sahələr təşkil edir. Rayonun ümumi sahəsinin 46368 hektarı (33,2 %-ni) suvarılan sahələrdir [ 3 ].

Rayonun yararlı torpaqlarının münbitliyinin onların keyfiyyət qrupları üzrə göstəriciləri aşağıdakı kimi paylanmışdır: I keyfiyyət qrupunda 2368 ha, II keyfiyyət qrupunda 41325 ha, III keyfiyyət qrupunda 63449 ha, IV keyfiyyət qrupunda 7308 ha. Göründüyü kimi rayonun torpaq ehtiyatlarının 55,4 %-ni orta keyfiyyətli (III keyfiyyət qrupu) torpaqlar təşkil edir.

Rayonun suvarılan torpaqlarında qrunt suları yatım dərinliyinə görə aşağıdakı kimi paylanmışdır:

2009 ha-da (4,3 %) 1,0 metrdən yuxarıda, 27859 ha-da (60,1 %) 1-3 metr arasında, 16500 ha-da (35,6 %) 3,0 metrdən yuxarıda.

Minerallaşma dərəcəsi 3,0 q/l-dən çox olan qrunt suları 20360 ha (43,9 %), 1,0-3,0 q/l olan qrunt suları 22500 ha (48,5 %), 1,0 q/l-dən az olan qrunt suları isə 3508 ha (7,6 %) ərazidə yayılmışdır.

Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə 23500 ha (50,7 %) yaxşı, 20500 ha (44,2 %) kafi, 2368 ha (5,1 %) isə qeyri kafi vəziyyətdədir.

Füzuli rayonunda qismən torpaq islahatı aparıldığından torpaq ehtiyatlarının 122609 hektarı (88 %-i) dövlət mülkiyyətində saxlanılmışdır. Bələdiyyə mülkiyyətinə verilmiş torpaq sahəsi 5574 ha (4,0 %), xüsusi mülkiyyətə verilmiş torpaqlar isə 11210 ha (8,0 %) təşkil edir.

Suvarılan ərazilərdə torpaq münbitliyinin pisləşməsinə təsir göstərən əsas səbəblərdən biri torpaq sahələrinin meliorativ vəziyyətidir.

Füzuli rayonunda ümumi sahəsi 46368 ha olan suvarılan torpaqların 50,2 %-i (23268 ha) müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır. Bunlardan 16500 ha (70,9 %) zəif şorlaşmış, 2500 ha (10,7 %) orta şorlaşmış, 4268 ha (18,4 %) isə şiddətli şorlaşmış torpaqlardır. Drenləşmiş sahələr 6300 ha olub, ümumi suvarılan sahənin 13,6 %-ni təşkil edir. Qarabağ müharibəsi zamanı ərazidə drenləşdirilmiş sahələr əsas etibarı ilə yararsız hala salınmışdır.

Rayon ərazisində müharibədən əvvəl şorakətli torpaqlar müşahidə edilməmişdir.

Rayonun ümumi sahəsinin 49,2 %-i (60279 ha) müxtəlif dərəcədə eroziyaya uğramış torpaqlardır. Zəif eroziyaya uğramış torpaqlar 23918 ha (39,7 %), orta eroziyaya uğramış torpaqlar 22374 ha (37,1 %), şiddətli eroziyaya uğramış torpaqlar isə 13987 ha (23,2 %) ərazini əhatə edir [ 1 ].

Rayonun ərazisi qismən erməni işğalı altında olduğuna görə həmin ərazinin torpaqlarında deqradasiya prosesinin getdiyi labüddür. Ona görə də rayonun torpaqlarında antropogen amillərin təsiri nəticəsində baş verən dəyişikliklərin müəyyən edilməsi üçün zəruri işlərin görülməsinə ehtiyac olacaqdır. Son statistika məlumatlarına görə Füzuli rayonunun əhalisi 131000 nəfərdir.

Cəbrayıl rayonu - Kiçik Qafqaz dağlarının cənub-şərqində Gəyən düzü və Qarabağ silsiləsində yerləşir. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. Ərazisi əsasən dağlıqdır. Arazboyu düzənliklərin torpaqları yüksək məhsuldarlığa malik tünd şabalıdı torpaqlardır. Ən böyük zirvəsi Dağ Tumasdır (1580 m). 1 şəhər, 4 qəsəbə və 92 kənd olmaqla 97 yaşayış məntəqəsi vardır. 23 avqust 1993-cü ildə

erməni təcavüzkarları tərəfindən işğal olunmuşdur. İqtisadiyyatın əsasını heyvandarlıq, üzümçülük, baramaçılıq təşkil edirdi. İşğala qədərki dövrlərdə ildə 60 min ton üzüm istehsal olunurdu [ 5 ].

Ərazisi 104980 hektardır. Suvarılan torpaqları 12509 ha təşkil edirdi. Kənd təsərrüfatına yararlı torpaqları 52409 ha-ya bərabər olub, ümumi torpaq sahəsinin 50 %-ni təşkil edir. Bunlardan 21045 ha əkin və dincə qoyulmuş, 7243 ha çoxillik əkmələr, 24 ha biçənək, 23282 ha örüş və otlaqlar, 815 ha isə həyətyanı sahələrin payına düşür. Rayonun meşə sahələri 4039 ha, kənd təsərrüfatına yararsız torpaqlar isə 48532 ha-ya bərabərdir.

Münbitlik göstəricilərinə görə rayonun kənd təsərrüfatına yararlı torpaq sahəsinin 18722 hektarı I keyfiyyət qrupuna, 12049 hektarı II keyfiyyət qrupuna, 11114 ha III keyfiyyət qrupuna, 9513 ha IV keyfiyyət qrupuna, 1011 hektarı isə V keyfiyyət qrupuna aiddir. Göründüyü kimi Cəbrayıl rayonunun kənd təsərrüfatına yararlı torpaqlarının 30771 hektarı (58,7 %-i) I-II keyfiyyət qruplarına daxildir [ 2 ].

Rayonun suvarılan torpaqlarının yalnız 4500 hektarı drenləşmiş sahələr olmuşdur. 7659 hektar şorlaşmış sahənin 6600 hektarı zəif şorlaşmış, 1059 hektarı isə orta şorlaşmış torpaqlardır.

12505 hektar suvarılan sahənin yalnız 505 hektarında zəif şorakətli torpaqlar yayılmışdır. 12000 ha suvarılan sahə isə şorakətsiz sahələrə aiddir.

355 hektar sahədə qrunt suları 1,0 metrdən yuxarıda, 7354 hektarında 1,0-3,0 m dərinlikdə, 4800 ha sahədə isə 3,0 metrdən aşağıda yerləşir. Minerallığı 3,0 q/l-dən çox olan qrunt suları suvarılan ərazinin 10559 hektarında yayılmışdır. 1,0-3,0 q/l-ə malik minerallığı olan qrunt suları 1450 ha-da, 1,0 q/l-dən az olan qrunt suları isə 500 ha ərazidə yayılmışdır. Qrunt sularının yatım dərinliyinə və minerallığına görə 9600 ha ərazi yaxşı, 1950 ha ərazi kafi və 959 ha qeyri-kafi qiymətləndirilmişdir.

Rayonun kənd təsərrüfatına yararlı torpaqlarının 75203 hektarı (71,6 %) bu və digər dərəcədə eroziyaya uğramış torpaqlardır. Bunlardan 24110 ha zəif, 17670 ha orta, 33415 ha isə şiddətli dərəcədə eroziyaya uğramış torpaqlardır [ 1 ].

Ümumiyyətlə, rayon ərazisində torpaqların xeyli hissəsi dağlıq və dağətəyi sahələrdə yayıldığından burada eroziya prosesi geniş yayılmışdır. Bu sahələrdə səthi, xətti, külək və irriqasiya eroziyası növləri geniş yayılmışdır. Dağətəyi zonada qobu və yarğan eroziya tiplərinin inkişaf etdiyi sahələr də az deyildir.

Cəbrayıl rayonu vaxtı ilə tam işğal olunduğundan bütün torpaq sahələri dövlət mülkiyyətinə aid edilmişdir. 2015-ci ilin siyahıyaalınmasına görə Cəbrayıl rayonunun əhalisi 76600 nəfərdir.

Ağdam rayonunun ümumi sahəsi 109300 hektardır. 1993-cü ilin 23 iyulunda 84200 hektarı erməni təcavüzkarları tərəfindən işğal olunmuşdur. 2020-ci ilin sentyabr ayına kimi rayonun 25190 hektarı işğaldan kənar torpaqlar olmuşdur. Rayonun relyefi əsasən düzənlik, qismən isə dağlıqdır. Rayon ərazisindən Qarqar, Xaçın, Qabarlı və Gülyataq çayları axır. Kənd təsərrüfatının əsas istiqamətləri pambıqçılıq, üzümçülük və heyvandarlıqdır. İşğala qədər rayonun torpaq ehtiyatlarının istifadəçilik vəziyyəti aşağıdakı kimi olmuşdur.

Rayonun ümumi ərazisinin 80794 hektarı kənd təsərrüfatına yararlı torpaqlar olmuşdur. Meşə torpaqları 1743 hektarı, kənd təsərrüfatına yararlı olmayan torpaqları isə 26853 hektarı əhatə edir. Əkin və dincə qoyulmuş torpaqlar 34438 hektar, çoxillik əkmələr 12017 hektar sahəni əhatə etmişdir. Örüş və otlaq sahələri 29539 hektar, biçənəklər 18 hektar, həyətyanı sahələr isə 4782 hektar təşkil etmişdir. Rayonun 49717 hektarı (31,2 %-i) suvarılan torpaqlar olmuşdur.

Keyfiyyət qruplarına görə torpaqlar aşağıda göstərilən rəqəmlərdə öz əksini tapmışdır. I keyfiyyət qrupunda 8206 ha (10,2 %), II keyfiyyət qrupunda 43965 ha (54,4 %), III keyfiyyət qrupunda 24411 ha (30,2 %), IV keyfiyyət qrupunda 3922 ha (4,8 %) V keyfiyyət qrupunda isə 290 ha (0,4 %) torpaq olmuşdur. Göründüyü kimi kənd təsərrüfatına yararlı torpaqların 68376 hektarı (84,6 %-i) II və III keyfiyyət qruplarında cəmlənmişdir [ 3 ].



"AzHvəM" EİB-nin "Elmi əsərlər toplusu" - 2022, XLIII cild

Rayonun suvarılan ərazilərində qrunt sularının dərinliyi 3,0 m-dən aşağıda yerləşən ərazilərin sahəsi 43669 ha olub, ümumi suvarılan sahənin 87,8 %-ni təşkil etmişdir. 5823 ha sahədə qrunt suları 1,0-3,0 m, 225 ha ərazidə isə 1,0 m-dən yuxarıda yerləşmişdir.

Minerallaşma dərəcəsi 1,0 q/l-dən az olan qrunt suları 32100 ha, 1,0-3,0 q/l olan qrunt suları isə 17617 ha ərazidə paylanmışdır. Minerallığı 3,0 q/l-dən çox olan qrunt suları suvarılan sahələrdə müşahidə olunmamışdır. Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə suvarılan 25055 ha yaxşı, 15758 ha kafi, 8904 ha isə qeyri-kafi qiymətləndirilmişdir.

Qrunt sularının dərinliyinin və minerallaşma dərəcəsinin əsasən qənaətbəxş olması torpaqların şorlaşmasına da öz təsirini göstərmişdir. Belə ki, suvarılan sahənin 32000 hektarı (64,4 %-i) şorlaşmayan torpaqlara, 17717 ha (35,6 %-i) isə cəmi şorlaşmış torpaqlara aiddir. Şorlaşmış torpaqların 10900 ha-ı (61,5 %-i) zəif şorlaşmış, 5200 ha (29,3 %) orta, 1617 ha (9,2 %) isə şiddətli şorlaşmış torpaqlardır. Şorakətləşmə vəziyyətinə görə isə suvarılan torpaqların 27217 ha-ı (54,7 %-i) şorakətli, 22500 ha-ı isə şorakətsiz kimi xarakterizə olunur. Şorakət torpaqların 18300 ha-ı (67,2 %-i) zəif, 8917 ha-ı isə orta və şiddətli şorakətli torpaqlara aiddir [ 1 ].

Ağdam rayonunun ümumi suvarılan sahəsinin 42985 hektarı (39,2 %-i) eroziyaya uğramışdır. Bunlardan 31245 hektarı (72,7 %) zəif, 6480 hektarı (15,1 %-i) orta, 5260 hektarı (12,2 %-i) şiddətli eroziyaya uğramış sahələrdir.

Ağdam rayonunun torpaqlarının 84200 hektarı (77,0 %-i) işğal altında olduğundan rayonun torpaq ehtiyatlarının böyük əksəriyyəti dövlət mülkiyyətində saxlanılmışdır. Belə ki, rayonun ümumi torpaq sahəsinin 80,6 %-i, yəni 88221 hektarı dövlət mülkiyyətindədir. Bələdiyyə mülkiyyətində olan torpaqlar 5452 hektar, xüsusi mülkiyyətə verilmiş torpaqlar isə 15717 hektar sahəni əhatə edir. Dövlət mülkiyyətində saxlanılmış torpaqların 63117 hektarı kənd təsərrüfatına yararlı torpaqlardır [ 2 ].

Zəngilan rayonu -Şimaldan Qubadlı və Cəbrayıl rayonları, cənubdan və şərqdən İran, qərbdən isə Ermənistanla həmsərhəddir. Ərazisi 72550 hektardır. Ərazisi orta və alçaq sahəsindədir, mürəkkəb parçalanmış səth quruluşuna malikdir. Rayon ərazisindən 4 çay keçir: Araz, Qxçuçay, Həkəri və Bəsitçay. Rayon respublikanın dağətəyi ərazisində yerləşməklə iqtisadi cəhətdən əsasən kənd təsərrüfatı istiqamətli olmuş, 29 kolxoz-sovxoz, 1 arıçılıq təsərrüfatını, 4 kooperativ, 3 kəndli-fermer təsərrüfatını əhatə etmişdir [ 5 ].

Suvarılan ərazinin 41,5 %-də (2199 ha) qrunt suları 1,0-3,0 m , 58,5 %-də (3100 ha) isə 3,0 m-dən çox məsafədə yerləçir.

34083 hektar torpaq sahəsi kənd təsərrüfatına yararlı torpaqlar olmuşdur. Bu torpaqların 14956 hektarı əkin və dincə qoyulmuş, 850 hektarı çoxillik əkmələr altında istifadə olunmuşdur. 17192 hektarı örüş və otlaqlar, 631 hektarı biçənəklər, 454 hektarı həyətyanı sahələrdən ibarət olmuşdur. Meşə torpaqları 13160 hektar, kənd təsərrüfatına yararsız torpaqları isə 33007 hektardır. Rayonun 5343 hektar kənd təsərrüfatına yararlı torpaqları suvarılan torpaqlardır.

Rayonun kənd təsərrüfatına yararlı torpaqlarının keyfiyyət qrupları üzrə paylanmasının xarakterik cəhəti əkin və çoxillik əkmələr altında becərilən torpaqların əsas hissəsinin I keyfiyyət qrupunda qorunub saxlanmasıdır. Belə ki, kənd təsərrüfatına yararlı (33960 ha) torpaqların 79,8 %-i, yəni 27104 hektarı I keyfiyyət qrupuna aiddir. II keyfiyyət qrupunda 3878 hektar (11,5 %), III keyfiyyət qrupunda 2493 hektar (7,3 %), V keyfiyyət qrupunda isə 485 hektar (1,4 %) torpaq paylanmışdır [ 2 ].

İşğala qədər rayonda suvarma yalnız düzən torpaqlarda kənd təsərrüfatı bitkilərinin yetişdirilməsində tətbiq edilirdi. Buna görə də rayonda suvarılan torpaqların meliorativ durumu digər bölgələrlə müqayisədə qənaətbəxş olmuşdur. Bununla yanaşı burada da becərilən torpaqların özünəməxsus meliorativ problemləri olmuşdur. Belə ki, ərazidə qrunt sularının yatım dərinliyinə görə suvarılan sahələrin 58,4 %-ində (3128 ha) qrunt sularının dərinliyi 3 m-dən çox, 32,7 %-ində (1715 ha) 1,0-3,0 m və 9,4 %-ində (500 ha) dərinlik 1,0-dən az olmuşdur. Qrunt sularının minerallaşma dərəcəsinə görə suvarılan sahələri 7,5 %-ində (400 ha) minerallıq 1,0 q/l-dən az, 92,5 %-də (4943 ha) 1,0-3,0 q/l arasında dəyişir. Rayonun suvarılan torpaqlarının 4250 hektarı (79,5 %) yaxşı, 850 hektarı (16,0 %) kafi, 243 hektarı (4,5 %) isə qeyri-kafi vəziyyətdə olmuşdur.

Torpaqların şorlaşma, şorakətləşmə və drenləşmə vəziyyətinə gəldikdə isə rayonun suvarılan sahələrinin 72,9 %-i (3893 ha) müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır. Şorlaşmış sahələrin 75,8 %-i (2950 ha) zəif şorlaşmış, 5,2 %-i (200 ha) orta şorlaşmış, 19 %-i (743 ha) isə şiddətli şorlaşmış torpaqlardır [ 1 ].

Rayonun suvarılan torpaqlarının yalnız 41,2 %-i (2200 ha) drenləşdirilmiş sahələrdən ibarətdir.

İşğala qədər aparılan tədqiqatlara əsasən rayonun ümumi ərazisinin 57,8 %-i (41911ha) müxtəlif dərəcədə eroziyaya uğramış torpaqlardan ibarətdir. Eroziyaya uğramış sahələrin 40,3 %-i (16905 ha) şiddətli, 20,5 %-i (8578 ha) orta, 39,2 %-i (16428 ha) isə zəif eroziyalı torpaqlardır [ 3 ]. Rayonun dağ-çəmən və dağ bozqır zonalarında torpaqlarda eroziya prosesləri meşə torpaqlarına nisbətən daha güclü gedir. Lakin son 27 ildə meşə sahələri erməni işğalçıları tərəfindən vəhşicəsinə qırılıb məhv edildiyindən meşə torpaqlarında eroziya proseslərinin daha da fəallaşması ehtimalı yüksəkdir.

Qubadlı rayonu - Bərgüşad çayının hər iki sahilində yerləşir. Sahəsi 80250 hektardır. Ermənistanın Gorus və Qafan rayonları, Zəngilan, Cəbrayıl, Laçın və Xocavənd rayonları ilə həmsərhəddir. Ərazidən Həkəri və Bərgüşad çayları keçir və Araz çayına tökülür. Rayonda 1 şəhər və 93 kənd vardır. Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq, baramaçılıq, xalçaçılıq və üzümçülük olmuşdur. Qubadlı torpağı çəltik əkini üçün Azərbaycanda anoloqu olmayan münbit xüsusiyyətlərə malik olmuşdur [ 3, 5 ].

Kənd təsərrüfatına yararlı torpaqları 34083 hektar təşkil edir. Meşə torpaqlarının sahəsi 13160 hektar, kənd təsərrüfatında istifadə olunmayan, şərti yararsız torpaqların sahəsi isə 33007 hektara bərabərdir. Kənd təsərrüfatına yararlı torpaqların 43,9 %-i (14956 ha) əkin və dincə qoyulmuş, 2,5 %-i (850 ha) çoxillik əkmələr, 1,9 %-i (631 ha) biçənək, 1,3 %-i (454 ha) həyətyanı sahələr, 9,8 %-i (17192 ha) isə örüş və otlaqlar altında istifadə edilmişdir.

Rayonun suvarılan sahəsi 5299 hektar olmuşdur. Kənd təsərrüfatına yararlı torpaqların böyük əksəriyyəti, 79,7 %-i (27170 ha) I keyfiyyət qrupunda cəmləşmişdir. II keyfiyyət qrupunda 10,0 % (3412 ha) , III keyfiyyət qrupunda 5,7 % (1955 ha), IV keyfiyyət qrupunda isə 4,6 % (1559 ha) torpaq paylanmışdır [ 2 ].

Suvarılan ərazinin 41,5 %-də (2199 ha) qrunt suları 1,0-3,0 m , 58,5 %-də (3100 ha) isə 3,0 m-dən aşağıda yerləşir. 98,1% (5200 ha) suvarılan ərazidə qrunt sularının minerallığı 1,0 q/l-dən az, 1,9 %-də (99 ha) isə 1,0-3,0 q/l olmuşdur. 87,7 % (4650 ha) suvarılan sahədə meliorativ vəziyyət yaxşı, 12,3 % (649 ha) sahədə isə kafi qiymətləndirilmişdir.

Rayonun suvarılan torpaqlarının 31,1 %-də (1649 ha) müxtəlif dərəcədə şorlaşmış torpaqlar yayılmışdır. Bunlardan 38,8 %-i (640 ha zəif, 61,2 %-i (1009 ha) isə orta şorlaşmış torpaqlardır. Suvarılan torpaqların yalnız 54,7 %-i (2900 ha ) drenləşdirilmiş torpaqlardır [1].

İşğala qədərki dövr üçün rayonun ümumi ərazisinin 43,8 %-i (35135 ha) müxtəlif dərəcədə eroziyaya uğramış torpaqlardan ibarət olmuşdur. Eroziyaya uğramış sahələrin 19,7 %-i (6915 ha) zəif, 32,0 %-i (10750 ha) orta, 48,3 %-i (17470 ha) şiddətli eroziyalı torpaqlardır [3].





Erməni işğalı altında olduğu bütün dövrlərdə rayonun torpaq istifadəçiliyi də başlı - başına buraxılmışdır.

Laçın rayonu -Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı, qərbdən isə Ermənistan ilə həmsərhəddir. Ərazisi 182603 hektardır. Çayları Həkəri və onun qollarıdır. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594 m). Əsasən çimli, dağ-çəmən, qəhvəyi dağ-meşə və karbonatlı dağ-qara torpaqlara malikdir. Suvarılan torpaq sahəsi 1515 hektar təşkil edir. Kənd təsərrüfatına yararlı torpaqları ümumi ərazinin 46,5 %-nə (85011 ha) bərabərdir. Kənd təsərrüfatına yararlı torpaqların 75,5 %-ni (64319 ha) örüş və otlaqlar təşkil edir. Əkin və dincə qoyulmuş torpaqlar 17,7 % (15045 ha), biçənəklər 5,5 % (4682 ha), çoxillik əkmələr 0,4 % (245 ha), həyətyanı sahələr isə 0,9 % (720 ha) təşkil etmişdir. Meşə torpaqları ümumi torpaq ehtiyatının 18,3 %-i (33285 ha), kənd təsərrüfatında istifadə olunmayan sahələr isə 35,2 %-ni (64307 ha) əhatə edir.

Kəlbəcər-Laçın iqtisadi-coğrafi bölgəsinə daxil olan digər rayonlarda olduğu kimi, Laçın rayonunda da kənd təsərrüfatına yararlı torpaqların böyük əksəriyyəti, yəni 85,8 %-i (72975 ha) I keyfiyyət qrupuna aiddir. II və III keyfiyyət qruplarında müvafiq olaraq 8,5 % (7239 ha) və 4,5 % (9837 ha), IV keyfiyyət qrupunda isə 1,5 % (960 ha) torpaq paylanmışdır [ 2 ].

1515 ha suvarılan sahənin bütünlükdə qrunt sularının dərinliyi 3,0 m-dən aşağıda yerləşir. Suvarılan sahədə qrunt sularının minerallaşma dərəcəsi 1,0 q/l-dən az olmuşdur. Meliorativ vəziyyət yaxşı qiymətləndirilmişdir. Suvarılan ərazilərdə şorlaşma müşahidə olunmamışdır [ 1 ].

Ümumi ərazinin 41,5 % -də (75897 ha) müxtəlif dərəcədə eroziyaya uğramış sahələr yayılmışdır. Zəif eroziyalı sahələr 33,7 % (25565 ha), orta eroziyalı sahələr 21,3 % (16150 ha), şiddətli eroziyalı sahələr isə 45,0 % (34182 ha) ərazini əhatə edir [ 3 ].

Kəlbəcər rayonunun ərazisi 195384 hektardır. Bu torpaqların 85277 hektarı (43,7 %) kənd təsərrüfatına yararlı torpaqlardır. Meşə torpaqları 32774 hektarı (16,7 %), kənd təsərrüfatında istifadə olunmayan torpaqlar isə 77333 hektarı (39,7 %) əhatə edir. Kənd təsərrüfatına yararlı torpaqların böyük əksəriyyəti 70616 hektarı (82,8 %) örüş və otlaqlardan ibarətdir. 6327 hektar (7,4 %) əkin və dincə qoyulmuş, 7571 hektarı (8,9 %-i) biçənəknəklər, 753 hektarı (0,9 %) həyətyanı sahələr, 10 hektarı (0,02 %) isə çoxillik əkmələr altında istifadə edilmişdir.

Keyfiyyət qrupları üzrə paylanmasına görə kənd təsərrüfatına yararlı torpaqların 93,2 %-i (79471 ha) I qrupda cəmlənmişdir. II keyfiyyət qrupunda 1,7 % (1484 ha), III keyfiyyət qrupunda 3,5 % (2993 ha), IV keyfiyyət qrupunda isə1,6 % (1329 ha) torpaqlar paylanmışdır [2].

1331 hektar suvarılan sahədə bütünlüklə qrunt suları 3,0 m-dən aşağıda yerləşmişdir ki, bunlarında minerallaşma dərəcəsi 1,0 q/l-dən azdır. Suvarılan ərazilərdə şorlaşmış torpaqlar yoxdur.

Rayonun ümumi ərazisinin 31,1 %-də (60873 ha) müxtəlif dərəcədə eroziyaya məruz qalmış torpaqlar yayılmışdır. Bu torpaqların 41,8 %-i (25485 ha) zəif, 29,0 %-i (17635 ha), 29,2 %-i (17753 ha) şiddətli eroziyaya uğramış torpaqlardır [ 3 ].

**1.** Rayonlar üzrə toplanmış materialları ümumiləşdirərək qeyd etmək olar ki, işğaldan azad olunmuş (Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) rayonların ümumi ərazisi 884550 hektar, kənd təsərrüfatına yararlı torpaqları 485984 hektar (54,9 %) olmuşdur.

**2.** Kənd təsərrüfatına yararlı torpaqların 60,7 %-ni, yəni 295128 hektarını örüş və otlaqlar, əkin və dincə qoyulmuş torpaqlar 27,4 % (133308 ha), çoxillik əkmələr 6,3 % (30468 ha), biçənəklər 3,0 % (13577 ha) , həyətyanı sahələr isə 2,6 % (10014 ha) təşkil etmişdir. Meşə torpaqları 12,1 % (97943) hektara bərabər olmuşdur. Kənd təsərrüfatında istifadə olunmayan, şərti yararsız torpaq sahələri 34,6 % (300623) hektara bərabərdir.

**3.** Kənd təsərrüfatına yararlı torpaqların 236016 hektarı (48,6 %) I keyfiyyət qrupunda, 113352 hektarı (23,3 %) II keyfiyyət qrupunda, 110252 hektarı (22,7 %) III keyfiyyət qrupunda, 24591 hektarı (5,1 %) IV keyfiyyət qrupunda, 1786 hektarı (0,3 %) isə V keyfiyyət qrupunda paylanmışdır.

Göründüyü kimi tədqiq olunan ərazinin kənd təsərrüfatı dövriyyəsində olan torpaqlarının 71,8 %-də (349368 ha) yüksək keyfiyyət qruplarına malik (I və II qrup) torpaqlar yer tutmuşdur.

**4.** Tədqiq olunan ərazinin122082 hektarı suvarılan torpaqlar olmuşdur. Bölgənin suvarılan torpaqlarında 1,0 m-dən dayazda yerləşən qrunt suları ümumi ərazinin 3089 ha-nı (2,6 %-ni), 1,0-3,0 m arasında yerləşən qrunt suları ümumi suvarılan sahənin 44950 ha (36,8 %-ni) və 3,0 m-dən dərində yerləşən isə 74043 ha (60,6 %) qrunt suları təşkil etmişdir.

Minerallaşma dərəcəsi 1,0 q/l-dən az olan qrunt suları 44554 ha (36,5 %), 1,0-3,0 q/l arasında olan qrunt suları 46609 ha (38,2 %), 3,0 q/l-dən artıq olan qrunt suları isə 30919 ha (25,3 %) ərazidə müşahidə edilmişdir. Qrunt sularının yatım dərinliyi və minerallaşma dərəcəsinə görə 69901 ha (57,3 %-i) yaxşı, 39707 ha (32,5 %) kafi, 12474 ha (10,2 %-i) isə qeyri-kafi qiymətləndirilmişdir.

**5.** Suvarılan ərazinin 54186 hektarında (44,4 %-də) torpaqlar müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır ki, bundan 37590 ha (69,4 %) zəif şorlaşmış, 9968 ha (18,4 %) orta şorlaşmış, 6628 ha (12,2 %) isə şiddətli şorlaşmış torpaqlardır.

**6.** Suvarılan ərazilərin yalnız 15900 hektarı (13 %) drenləşmiş sahələrdir. Suvarılan ərazinin 28005 ha-da müxtəlif dərəcədə (1800809 ha zəif, 9196 ha orta və şiddətli) şorakətləşmiş torpaqlar müşahidə edilmişdir.

**7.** İşğaldan azad olmuş torpaqlarda 2200,3 km uzunluğunda suvarma şəbəkəsi (ondan 38,0 km-i magistral, 503,8 km-i təsərrüfatlararası, 1658,5 km-i təsərrüfatdaxili) kanallar, 84,4 km uzunluğunda kollektor-drenaj şəbəkəsi, 381 ədəd hidrotexniki qurğu tikilmişdir. 15900 hektar drenləşmiş sahə işğal altında qalmışdır.

**8.** İşğala qədər aparılmış tədqiqatlara əsasən eroziyaya uğramış sahələr bölgənin ümumi ərazisinin 392283 hektarında yayılmışdır, Bunlardan 370736 ha-ı (39,2 %) zəif, 99673 ha-ı (25,4 %) orta, 138972 ha-ı (35,4 %) isə şiddətli eroziyaya uğramış torpaqlardır. Naxələf qonşumuz olan erməni təcavüzünün dəhşətləri ölkəmizdə böyük fəlakət yaratmışdır. Təcavüzə məruz qalan Qarabağ bölgəsinin şəhər və rayonları dağdılmışdır. Təcavüz nəticəsində Qarabağ bölgəsinin 900-dən artıq kənd və qəsəbələri, 7 rayon mərkəzi işğal altına düşərək tamamilə məhv edilmışdir.

Düşmən təkcə Xocalı genosidi deyil, həm də ekoloji genosid törətmiş, partlayan bomba və füqaslar, raket və top mərmiləri, dinamit və zəhərli sursatlar təbii landşaftlarla yanaşı aqrolandşaftları da məhv etmışdir. Bunun nəticəsində ərazinin ekoloji tarazlığını pozaraq simasını dəyişdirmiş, geniş miqyaslı hərbi eroziya yaratmışdır.

Respublikanın işğala məruz qalmış rayonlarında düşmən yeraltı sərvətlərimizi də talan etmişdir. Mədəni aqrolandşaftlar, o cümlədən sarı buğda zəmilərində, üzüm bağları yerləşən ərazilərdə səngərlər, xəndəklər qazılmış, bomba və dinamitlərin yaratdığı çalalar ərazini yararsız vəziyyətə salmışdır. Radioaktiv mərmilər, zəhərli partlayıcılar torpaqları zəhərləmiş və toksikoloji vəziyyəti xeyli gərginləşdirmişdir.

Düşmən tərəfindən işğal altına alınan böyük bir ərazi xarabazara çevrilmişdir. Hərbi eroziya yaratmış, topların, raket və bombaların partlaması nəticəsində landşaftlar parçalanmış, aqrolandşaftlar dağdılmış, torpaqların strukturu pozulmuş, münbitlik potensialı itirilmişdir. Müharibədə iri çaplı silahların mərmilərindən və minalardan geniş istifadə edilməsi torpaqları çirkləndirmiş, zəhərləndirərək toksikoloji şəraiti xeyli ağırlaşdırmışdır. Müharibə ekosistemləri dağıtmış, heyvanat aləmini məhv etmiş və təbiətin tarazlığına böyük zərbə





vurmuşdur.

Təbiətə, bitki və torpaq örtüyünə hərbi eroziyanın vurduğu ziyanların miqyası o qədər böyük olmuşdur ki, hələ 27 il bundan əvvəl Füzuli rayonunun işğaldan azad olunan bəzi ərazisində indiyə qədər minalar tam təmizlənməmiş, tez-tez partlayışlar baş vermiş və ölüm hadisələri ilə nəticələnmiş, bir sözlə hərbi eroziya həm də texnogen çirklənməyə səbəb olmuşdur. Müharibə o vaxta qədər respublikada məlum olmayan hərbi eroziyanı əmələ gətirmişdir. Müharibə zonasında qazılan səngərlər, sığınacaqlar, partlayış nəticəsində əmələ gələn xəndəklər, çökəkliklər, rəngini və simasını itirmiş torpaq sahələri, ümumiyyətlə pozuntuya məruz qalmış landşaftlar nəzəri cəlb edir və böyük təəssüf hissi oyadaraq düşmənə haqlı nifrət oyatmışdır.

Füzuli rayonunun 1994-cü ilə qədər müharibə meydanına çevrilmiş, sonradan azad edilmiş Aşağı Əbdürrəhmanlı kəndi ərazilərində aparılmış tədqiqat işləri [ 6 ] göstərir ki, torpağın 0-50 sm qatında normal morfogenetik quruluş dağılmış, struktur tam pozulmuş, süxurlar üzə çıxmışdır. Belə sahələrdə bitki bitmir, torpağın humus qatı dağılmışdır. Təxmini hesablamalar göstərir ki, şabalıdı (boz-qəhvəyi) torpaqların 1 hektarından 20-25 ton humus, 3-4 ton ümumi azot, 14-18 kq mənimsənilən fosfor, 400-450 kq dəyişən kalium itmişdir. Belə ərazilərdə mikroelementlərin də miqdarı xeyli azalmış, torpağın aqrofiziki, aqrokimyəvi tərkibi pisləşmiş və münbitliyi xeyli azalaraq deqradasiyaya uğramışdır. Bomba və mərmi düşən sahələrdə torpaq tam yanmış və onun münbitliyinin əsasını təşkil edən humus də yanmışdır.

Beləliklə torpaq kərpicə bənzər şəkil almışdır. Belə sahələrdə 1 hektardan 40 tona qədər humus yanmışdır. Məlum olduğu kimi torpaqda humusun formalaşmasında, onda gedən biokimyəvi proseslərdə mikrobioloji amil böyük əhəmiyyətə malikdir. Aparılan çox illik tədqiqatlar göstərir ki, rayon ərazisində hakim torpaq sayılan şabalıdı torpaqlarda 1 kq torpaqda 2-8 min mikroorqanizmlər (bakteriyalar, göbələklər və şüalı göbələklər) mövcuddur (B.Q.Şəkuri 2004-2006-cı illər).

Partlayışlar nəticəsində yanmış torpaqlarda mikroorqanizmlər məhv edilmiş və onların bərpası üçün uzun müddət lazım gələcəkdir. Göründüyü kimi hərbi əməliyyatlara məruz qalan və münbitliyini itirən torpaqların bərpası üçün çox vaxt tələb olunacaqdır.

**9.** Tədqiq olunan bölgənin Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəbəcər rayonları tam işğal olunduğundan bütün torpaq sahələri dövlət mülkiyyətinə aid edilmişdir. Ağdam və Füzuli rayonlarının müəyyən hissəsinin işğal altında olmaması səbəbindən həmin rayonlarda qismən torpaq islahatı aparılmışdır. Ağdam və Füzuli rayonlarında müvafiq olaraq dövlət mülkiyyətinə 88221 ha və 122609 ha; bələdiyyə mülkiyyətinə 5452 ha və 5574 ha; xüsusi mülkiyyətə isə 15717 və 11210 ha torpaq sahəsi ayrılmışdır. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının istiqamətləri müəyyən edilərkən hər bir rayonun yerləşdiyi kadastr rayonuna uyğun təbii-təsərrüfat şəraitinin nəzərə alınması tövsiyə edilir.

**10.** Zəngilan, Füzuli və Cəbrayıl rayonlarının Arazboyu kadastr rayonuna daxil olan əraziləri düzən və qismən dağətəyi torpaqlardan ibarətdir. Bu ərazilərdə başlıca olaraq boz torpaqlar yayılmışdır. Qeyri-bərabər paylanmış yağıntıların illik miqdarı 360-630 mm arasında tərəddüd edir. Fəal temperaturların cəmi 3800-4500$^0$ təşkil edir. Qışı isti keçir. Vegetasiya dövrünün uzunluğu 192-210 gündür. Burada kənd təsərrüfatının əsas sahələri üzümçülük, taxılçılıq, heyvandarlıq, ipəkçilik, bağçılıqdır.

**11.** Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının alçaq və orta dağlıq torpaqları Dağlıq Qarabağ kadastr rayonuna daxildir. Burada qəhvəyi dağ-meşə, qaratorpaq və şabalıdı torpaq tipləri üstünlük təşkil edir. Bu torpaqların mənimsənilməsi və təbii şəraitləri kompleks ixtisaslaşmış sahələrin yaradılmasına imkan verir. O ərazilərdə üzümçülüyü, heyvandarlığı, baramaçılığı və bağçılığı inkişaf etdirmək məqsədə uyğun olardı.

**12.** Ağdam rayonunun düzən əraziləri Mil-Qarabağ kadastr rayonuna, alçaq və orta dağlıq torpaqları isə Dağlıq Qarabağ kadastr rayonuna daxildır. Düzən ərazilərdə tünd boz-qəhvəyi, açıq-boz-qəhvəyi, çəmən-boz torpaqları, alçaq və orta dağlıq ərazilərdə isə qəhvəyi dağ-meşə, qaratorpaq və şabalıdı torpaq tipləri üstünlük təşkil edir.

Ağdam rayonunun təbii şəraiti və iqtisadi-coğrafi vəziyyəti kənd təsərrüfatının inkişafı üçün əlverişlidir. Burada üzümçülük, pambıqçılıq, heyvandarlıq, taxılçılıq əsas, baramaçılıq və bağçılıq isə əlavə sahələrdir.

**13.** Laçın-Qubadlı kadastr rayonuna Qubadlı və Kəlbəcər rayonlarının alçaq və orta dağlıq torpaqları daxildir. İqlimi quru-soyuq qışla, yumşaq isti yay arasında dəyişir. Fəal temperaturların cəmi 600-3800$^0$, yağıntıların miqdarı 390-900 mm, şaxtasız günlərin sayı 145-240 arasında dəyişir. Ərazidə qəhvəyi dağ-meşə, qonur dağ-meşə torpaq tipləri yayılmışdır. Əsas istehsal sahələri tütünçülük, heyvandarlıq, kartofçuluqdur. Taxılçılıq, üzümçülük, ipəkçilik və bağçılıq əlavə sahələri təşkil edir.

**14.** Laçın və Kəlbəcər rayonlarının yüksək dağlıq torpaqları (otlaqlar) Dəlidağ-Şahdağ kadastr rayonuna daxildir. Başlıca olaraq yay otlaqları kimi istifadə olunur. Bu kadastr rayonunda çimli dağ-çəmən, bozqırlaşmış dağ -çəmən torpaq tipləri geniş yayılmışdır.

**15.** İşğaldan azad olunmuş rayonlarda əsas kənd təsərrüfatı bitkilərinin işğaldan əvvəlki dövrlər (1986-1990-cı illər) üçün məhsuldarlığı qənaətbəxş səviyyədə olmamışdır. Həmin bitkilərin məhsuldarlıq göstəricilərini 2013-2020-ci illər üçün respublika üzrə göstəricilərlə müqayisə etdikdə bu fərqin kifayət qədər yüksək olduğunu görmək olar. Bu səbəbdən "Qarabağa qaydış" proqramı çərçivəsində həyata keçiriləcək tədbirlər sistemi hazırlanarkən bu məsələyə xüsusi diqqət yetirilməlidir.

**16.** Bölgənin torpaq ehtiyyatları uzun illər erməni işğalı altında olduğundan torpaq istifadəçiliyi də başlı-başına buraxılmış, meşə sahələri işğalçılar tərəfindən vəhşicəsinə qırılaraq məhv edildiyindən kənd təsərrüfatına yararlı torpaq sahələrində vaxtı ilə yararlı olan torpaqların müxtəlif deqradasiya proseslərinə uğraması baş vermişdir.

**Nəticə.** İşğaldan azad edilmiş ərazilərimizdəki su təsərrüfatı və meliorasiya obyektlərinin böyük əksəriyyəti sıradan çıxarılıb və talan edilmişdir. Ona görə də işğal altından çıxmış torpaq ehtiyatlarından səmərəli istifadə etmək, münbitliyi qoruyub saxlamaq, yararsız vəziyyətə salınmış torpaqların əkin dövriyyəsinə qaytarılmasını təmin etmək, xüsusilə su və hərbi eroziyaya səbəb olan amillərin aradan qaldırılması yollarını müəyyən etmək üçün **kompleks tədbirlər sistemi hazırlanmalıdır.**

- Ərazilərdə müasir texnologiyalardan istifadəyə üstünlük verməklə mina təmizləmə işləri tam başa çatdırıldıqdan sonra həmin ərazilərdə uzun müddətli rekultivasiya işləri aparılmalı, fitomeliorativ tədbirlər həyata keçirilməli, sahələrə yüksək normada peyin, mineral və mikrogübrələr verilməli, 2-3 il ərzində monitorinq müşahidələri və torpaqlar üzərində toksikoloji tədqiqatlar aparılmalıdır.
- İşğaldan azad edilmiş ərazilərimizdə irriqasiya və meliorasiya sistemlərinə dəymiş zərər dəqiqləşdirilməli, aparılacaq araşdırmalar nəticəsində istifadəyə yararlı və tam yararsız olan su təsərrüfatı və meliorasiya obyektləri müəyyən edilməli və həmin ərazilərin gələcək inkişaf planına uyğun təkliflər hazırlanmalıdır.
- Şorlaşmış və şorakətləşmiş torpaqların yaxşılaşdırılması istiqamətində kompleks aqromeliorativ tədbirlər işlənilməlidir.
- Real imkanları nəzərə alaraq perspektiv üçün müvafiq əkin sahələri üçün yer quruluşu xəritəsi tərtib edilməli və suvarma sistemləri müasir texnologiyalar əsasında yenidən qurulmalıdır.
- Ərazinin daş-kəsəkdən təmizlənməsi və hamarlanması işləri həyata keçirilməlidir.
- Təbiətdə müvazinət yaratmaq məqsədilə ekosistemlər bərpa edilməli, geniş miqyaslı meşə meliorasiya işləri aparılmalıdır.





**İstifadə olunan ədəbiyyat:**

1. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin "Hidrogeoloji-meliorativ Xidmət İdarəsi"- nin 1992-ci il üçün kadastr məlumatları. Bakı, 1993-cü il.
2. Məmmədov Q.Ş. -Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. -Bakı, Elm, 2007, 856 s.
3. Məmmədov Q.Ş. -Azərbaycanda torpaq islahatı: hüquqi və elmi-ekoloji məsələlər. -Bakı, Elm, 2002, 412 s.
4. Azərbaycan SSR-də kənd təsərrüfatının idarə edilməsi sistemi. -Bakı, Azərnəşr,1976, 674 s.
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 1992, 140 s.
6. Allahverdiyev F.A. Qarabağın dağətəyi zonasında eroziya prosesi, hərbi eroziya nəticəsində torpaqların pozulması, çirklənməsi və deqradasiyası. Bakı, "Elm", 2006, s.143-145.

## ЗЕМЕЛЬНЫЙ ФОНД ТЕРРИТОРИЙ ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ И СОСТОЯНИЕ ИХ ИСПОЛЬЗОВАНИЯ

д.ф.а.н., доц. М.Ф. Гурбанов
E-mail: qurbanov1958@list.ru
н.с. А.Ф. Алиева
н.с. Г.А. Новрузлу
инженер Р.Э. Маммедов
НПО «Аз.ГиМ»

**Резюме.** В статье проанализировано состояние использования земельного фонда территорий республики освобожденных от оккупации на основе материалов по качеству групп земель, посевных площадей сельскохозяйственных культур, показателей характеризующих эколого-мелиоративное состояние земель.

**Ключевые слова:** земельный фонд, посевные площади, засоление, солонцеватость, грунтовые воды, эрозия.

## LAND FUND OF LIBERATED FROM OCCUPATİON TERRİTORİES AND ITS USAGE STATUS

Ph.D (on agricultural sciences),
Associate professor M.F. Qurbanov
E-mail: qurbanov1958@list.ru
Res. Assoc. A.F. Aliyeva
Res. Assoc. Q.A. Novruzlu
Engin. R.A. Mamedova
"Az.H&A" SPA

**Summary.** The article analyzes the state of use of the land fund of the liberated from occupation territories of the republic for the pre-occupation period on the basis of materials collected on the indicators charactering the land reclamation and ecological condition of the land quality group, arable land.

**Keywords:** land fund, sown arena, salinization, erosion, ground water.

Redaksiyaya daxil olma: 14.12-2021-ci il
Təkrar işlənməyə göndərilmə: 02.03-2022-ci il
Çapa qəbul edilmə: 31.03-2022-ci il